# "Zəngəzur dəhlizi yalnız iqtisadi deyil, geosiyasi amil kimi qiymətləndirilməlidir"

"Zəngəzur dəhlizi Türkiyə üçün geosiyasi xarakter daşıyaraq Cənubi Qafqaz və Mərkəzi Asiya ölkələri ilə iqtisadi-ticarət əlaqələrini genişləndirir, qarşılıqlı münasibətlərin daha da möhkəmlənməsini təmin edir. Eyni zamanda Azərbaycandan ayrı düşmüş Naxçıvan Muxtar Respublikasının da Türkiyə ilə nəqliyyat və tranzit sahəsində dərin əməkdaşlıq əlaqələrinin inkişafına təkan verəcək".

Bu sözləri AZƏRTAC-a açıqlaması zamanı türkiyəli iqtisadçı-ekspert Hakan Topkurulu deyib.

O bildirib ki, bu dəhlizin iqtisadi mahiyyəti ilə yanaşı, siyasi xarakteri də var.

"Dəhliz Türkiyə ilə Azərbaycanı, eləcə də Mərkəzi Asiyadakı türk dövlətlərini birləşdirir, onların daha yaxın əməkdaşlığını, bir-birini beynəlxalq arenada əsaslı dəstəkləməsini təmin edir, iqtisadi, siyasi, sosial və mədəni birliyin yaranaraq qlobal siyasi proseslərdə layiqli mövqe tutmasına imkan verir. 6 müstəqil türk dövləti birlikdə 4,7 milyon kvadratkilometr ərazini əhatə edir. Müqayisə üçün qeyd edək ki, Avropa İttifaqı ölkələrinin ərazisi ümumilikdə 4 milyon kvadratkilometrdir. Həmçinin 6 müstəqil türk dövləti birlikdə ümumi dünya əhalisinin 2 faizindən çoxunu təşkil edir. Bu gün müstəqil türk dövlətlərinin toplam göstəricilərinə baxdıqda, ərazilərinə görə dünya ölkələri arasında 7-ci, əhali sayına görə 9-cu, ümumi daxili məhsul (ÜDM) istehsalına görə 16-cı, təbii qaz ehtiyatlarına görə Rusiya, İran və Qətərdən sonra 4-cü, neft istehsalına görə 9-cu, qızıl və bor ehtiyatlarına görə 1-ci, uran ehtiyatına görə isə 2-ci yerdə dayanır. Qeyd edək ki, 1,1 trilyon dollar milli gəliri və 560 milyard dollarlıq xarici ticarət dövriyyəsi ilə türk dövlətləri böyük iqtisadi potensiala malikdirlər", - deyə ekspert nəzərə çatdırıb.

H.Topkurulu vurğulayıb ki, Zəngəzur dəhlizi bu potensialı dünya bazarına çıxaracaq, nəqliyyat və tranzit yükdaşımanı təmin edərək hər bir dövlətin iqtisadi inkişafına töhfə verəcək: "Orta dəhlizin davamı olaraq Zəngəzur dəhlizi ABŞ və Avropanı maraqlandırdığı üçün onun beynəlxalq əhəmiyyəti böyükdür. Zəngəzur dəhlizi yalnız iqtisadi deyil, həmçinin geosiyasi bir amil kimi qiymətləndirilməli və gələcəkdə türk birliyinin yaranaraq vahid gücə çevrilməsi üçün həyata keçirilən layihə kimi dəyərləndirilməlidir".

Azərbaycan.- 2026.- 16 yanvar (№ 9).- S.9.